*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 283-287* *ISSN: 2663-4406*

**UOT:** 071(091)

Südabə Ağabalayeva*

# KLASSİK İRSİN MİLLİ MÜƏYYƏNLİYİ DƏYƏR KİMİ

**_Xülasə_**

Milli müstəqilliyinin varisliyini elan etməkdə Azərbaycan xalqına mənəvi stimul olmuş ədəbiyyat XX əsrin 70-ci illərinin sonu, 80-ci illərin əvvəllərində bir çox mənəvi dəyərləri ədəbi həqiqətlər işığında yenidən qiymətləndirməyə başlamışdı. Bu dövrdə ictimai hadisələrin sürətli dinamikasının cəmiyyətdə yaratdığı çaşqınlıq yeni yaranan mənəvi dəyərlərlə bəşəriyyətin mənəvi dəyərləri arasında ahəngi yox, xaosu səciyyələndirirdi. Vəziyyətdən çıxış yollarından biri kimi tarixdə şəxsiyyət və epoxa, "mən" və zaman münasibətlərinin kökünün axtarılması idisə, bir yol da ədəbi irsin dəyər səviyyəsini müəyyən edən ayrı-ayrı yaradıcılıqların, mətnlərin və dövrlərin mənəvi təcrübəsini konkret tarixi materialın kontekstində təqdim edilən ümumbəşəri problemlərin həllinə yönəltmək zərurətinin dərk olunması idi. Buraya insanı sabit mənəvi və sosial dəyərlər sınağında dərk etməkdə klassik ədəbi irsin məktəb kimi öyrənilməsi də əlavə olunmalıdır. Klassiklərin, klassik mətnlərin yeni mənəvi dəyərlər sisteminə qaytarılmasında "Azərbaycan" jurnalının fəaliyyəti həm də onunla diqqəti cəlb edir ki, klassik irslə bağlı nəzəri-fikir və mülahizələrə diqqət, mövcud ədəbi-mədəni təcrübəyə, sənət məsələlərinə çağdaş baxış nəşrin müstəqillik illərində ədəbi siyasətində xüsusi çəkiyə malik olmaqla yanaşı, bu istiqaməti müasir ədəbi prosesin əsas keyfiyyət göstəricilərindən biri kimi qəbul edir.

**Açar sözlər:** klassik irs, dəyər, Azərbaycan, ədəbiyyat, müstəqillik

## NATIONAL IDENTITY OF CLASSICAL HERITAGE AS A VALUE

**_Summary_**

Literature that was a moral incentive for the Azerbaijani people in declaring national independence, began to revise many spiritual values at the end of 70s and in the early of 80s of XX century. In this period the confusion caused by political events in society characterized not only the harmony between the new moral values and the moral values of humanity, but chaos. One of the ways out of this situation was to research the basis of relations of the personality and epochs, "I" and time, and the other way was to understand the solution of universal problems that is introduced the moral experience of seperate creativities, texts and periods, which defines the value of literary heritage, in the context of concrete historical materials. The study of classical literary heritage as a school should be added in understanding the human in the process of moral and social values. In returning classics and classic texts in the new moral values system, the activity of the magazine "Azerbaijan" is also characterized by the fact that focus on theoretical ideas and considerations concerning classical heritage and contemporary view to literary-cultural experience and art during the independence years of the publication were specific in its literary policy and received this aspect as one of the main qualities of modern literary process.

**Key words:** classical heritage, value, Azerbaijan, literature, independence

## НАЦИОНАЛЬНАЯ ИДЕНТИФИКАЦИЯ КАК ЦЕННОСТЬ КЛАССИЧЕСКОГО НАСЛЕДИЯ

**_Резюме_**

В провозглашении установления национальной независимости в конце 70 – начале 80-х годов литература начала оценивать в правдивом свете многие нравственные ценности, служащие духовным стимулом азербайджанского народа. Возникшая в этот период быстрая динамика общественных событий, создавшая неопределённость в обществе, привела не к гармонии возникших новых нравственных ценностей с общечеловеческими нравственными ценностями, а к хаосу. Если, как один из выходов из этого положения, виделся в

* Bakı Slavyan Universiteti. E-mail: sudabe334@mail.ru

поисках корня взаимоотношений личности и эпохи в истории, «я» и время, ещё один путь определения оценочного уровня художественного наследия нравственного опыта творчества отдельных представителей, текстов и эпох виделся в целесообразности представления решения общечеловеческих проблем в контексте конкретного исторического материала. Сюда включено и осознание классического художественного наследия как школы в изучении человеком нравственных и социальных ценностей существования. В деле возвращения классиков, классических текстов в новую систему ценностей деятельность журнала «Азербайджан» привлекала внимание и тем, что, с одной стороны, внимание уделялось связанным с классическим наследием теоретическому мышлению и гипотезам, соответствующему литературно-культурному опыту, вопросам искусства, печати, имеющей особую значимость в годы независимости, но также восприятию нового направления современного литературного процесса как одного из основных качественных показателей.

**Ключевые слова:** классическое наследие, ценность, Азербайджан, литература, независимость

**Giriş.** İctimai münasibətlər sisteminin dəyişməsinin cəmiyyətə təsirlərinin təhlili göstərir ki, ənənəvi dəyərlərdən tez-tələsik imtina olunması, xüsusən yeni dəyərlər yaradılmadan "köhnə" dəyərlərin arxivə göndərilməsi, onlardan üz döndərilməsi, yaxud ənənəvi dəyərlərin inkar olunması heç də yaxşı deyil. Yalnız ona görə yox ki, sınaqdan çıxmış "ən yaxşı yeni – unudulmuş köhnədir" nəticəsi ehkam kimi qiymətləndirilməyə layiqdir, həm də ona görə ki, cəmiyyətin də, fərdin də inkişafının keyfiyyəti dəyərlərin sintezinə nail olmaq və onlara yaradıcı yanaşmaqdan asılıdır.

Mədəniyyəti təkcə yaradılanlar deyil, həm də yaradılanlara münasibət kimi qavrayan, qəbul edən düşüncədən yanaşılsa, klassik ədəbi irsə münasibətdə diqqətli və həssas yanaşma müasir ədəbi prosesin əsas keyfiyyət göstəricilərindən biri kimi xarakterizə olunmalıdır. Klassik irsə dəyər səviyyəsində münasibət – tarixə müraciət, klassik irsin tədqiqi və təbliği, sənətkarların təcrübəsindən bəhrələnmək, ayrı-ayrı sənətkarların yaradıcılıq nümunələrinə nəzirə, təbdil və iqtibaslar, ən başlıcası, ənənəyə novatorcasına yanaşma – müasir ədəbi prosesin inkişaf etdirilməsində, onun bir sıra problemlərinin həllinə istiqamətlənmiş yanaşmalarda, gənc ədəbi nəsillərin düzgün istiqamətlənməsində mühüm ictimai-estetik amillərdəndir. Bu amillər həm də milli ədəbi irsin birdən-birə yaranmayaraq, uzun mədəni təşəkkül yolu keçməklə dünya bədii düşüncəsinin inkişafında yerinin və rolunun düzgün qiymətləndirilməsinə xidmət edir. Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığının özündən sonra dünya, xüsusilə Avropa ədəbiyyatına təsiri ilə bağlı ədəbiyyatşünas Əkbər Ağayevdən burada sitat gətirməyi məqsədəuyğun hesab edirik:"... Nizaminin süjetlərinin dünya ədəbiyyatında və xüsusilə Qərbi Avropa ədəbiyyatında yayılması məsələsi haqqında danışarkən qeyd etmək lazımdır ki, böyük şairin əsərlərinin ayrı-ayrı süjetləri, bəzən Avropa yazıçıları tərəfindən bilavasitə istifadə olunmuş, bəzən də həmin süjetlər dolayı yollarla Avropa ədəbiyyatına gedib çıxmışdır [1, s. 155].

"Azərbaycan" jurnalının ilk nömrəsindən başlayaraq, klassik ədəbi irsə münasibətin onun ədəbi siyasətində aparıcı xətt olduğunu demək mümkündür. "Maarif və mədəniyyət" jurnalının ilk iki nömrəsindən başlayaraq, klassik ədəbi irs mövzusu (məsələn, Salman Mümtazın Nəsimi haqqında irihəcmli oçerki) bu gün də davam etdirilir. Bu, təkcə folklora, şifahi xalq ədəbiyyatı nümunələrinə müraciət, klassik mətnlərin süjetlərinə, bədii əsərlərin strukturuna, poetik sintaksisinə və digər məziyyətlərinə müraciətlərlə müşayiət olunmur. Bədii məndəricəyə, fəlsəfi mahiyyətə, ideya dəyərlərinə, estetik təfəkkür tərzinə yaxınlıq və bağlılıqda da özünü göstərir.

Vahid sovet mədəniyyəti yaratmaq adı altında xalqları, o cümlədən Azərbaycan xalqını öz zəngin tarixi-mədəni keçmişindən uzaqlaşdırmaq, əsrlər boyu formalaşmış mütərəqqi ənənələrdən imtina, milli-mənəvi dəyərlərin sıxışdırılması proletar ideologiyasının başlıca hədəfi idi. Bu məqsədini həyata keçirməkdə ədəbiyyatı bütövlükdə bir mətbu tribuna, vasitə kimi görən bolşevik ideologiyası partiya qərarları, ədəbi direktivlərlə "silahlanırdı". "Pantürkizm", "panislamizm", milli yaddaşa qarşı mübarizə humanitar siyasətin "məntiqi" əsası kimi tənqid və təqibin dövriyyəsini sürətləndirirdi. XX əsrin iyirminci illərinin ortalarından başlamış bu siyasətin əleyhinə olanlar yalnız "köhnələr" deyildi. Yeni quruluşu alqışlayan, Azərbaycan sovet ədəbiyyatını yaradan şair və

yazıçıların, az da olsa, bir qismi milli düşüncəyə, mədəni irsə bu şovinist münasibətlə razılaşmayaraq etirazlarını ən müxtəlif səviyyələrdə və formalarda bildirirdilər. Əlbəttə, bu, açıq, kəskin etiraz deyildi, daha çox təəssübkeşlik, müdafiə səciyyəli idi, bununla belə, ədəbi siyasətdə bu yöndə hər cür cəhdlər "idarəolunmazlıq" təhlükəsi kimi çevik skeptik hücumlara məruz qalırdı. Azərbaycan sovet poeziyasının yaradıcılarından biri olan Səməd Vurğun "siyasi-ideoloji sayıqlığına" zaman-zaman məruz qaldığı ittihamlara qarşı mövqeyini belə əsaslandırırdı: "...mən kommunistəm, ona görə də mən özümü ən böyük internasionalist hesab edirəm. Mən bütün insanlara, bütün xalqlara və millətlərə səadət arzulayıram və bu yolda çalışıram. Lakin bununla bərabər, məndən ötrü ən müqəddəs torpaq Azərbaycandır, ən doğma xalq isə Azərbaycan xalqıdır, onun dili və şeiri mənim vicdan səsimdir, doğma anamdır. Əgər buna görə məni millətçi etmək istəyirlərsə, qoy etsinlər. Bir gün gələr, tarix həqiqəti açar" [2, s.37]. Yeri gəlmişkən, Səməd Vurğun nəzəri görüşlərində klassik irsin milli müəyyənliyinə xüsusilə diqqət ayırmış, "Avesta, "Dədə Qorqud" kimi ədəbi abidələrin milli təfəkkürün, estetik düşüncənin formalaşmasında və inkişafında mühüm mənbə kimi rolunu yüksək qiymətləndirmişdir: "Zərdüştün "Avesta" kitabı Azərbaycan fəlsəfəsinin böyük abidələrindən biridir. Şübhəsiz, həm məzmununa, həm əhəmiyyətinə görə "Avesta" nəinki Azərbaycanın, bütün dünyanın mənəvi inkişafında qiymətli sənəddir" – fikrini müxtəlif məqalə və çıxışlarında qeyd etməklə yanaşı, şair bədii yaradıcılığında da, məsələn, "Fərhad və Şirin", "Muğan", "Hürmüz və Əhrimən", "Zərdüştün xülyaları" və s. əsərlərində həmin mövzudan mənbə kimi yararlanmışdır. "...özü də Səməd Vurğun bunu o vaxt edirdi ki, ictimai – ideoloji mühit bu məqsəd üçün o qədər də hazır və münasib deyildi. Məlum rejimin qara projektorları öz "işığını" təkcə ayrı-ayrı ziyalıların, fikir adamlarının üzərinə deyil, əsrlərin o üzündən bu günə körpü olan abidələrimizin də üstünə salırdı və "Avesta"nın, "Dədə Qorqud"un lazımınca tədqiqi dövrün məntiqinə zidd idi. Bu abidələrin tədqiqatının ortaya çıxaracağı bir çox mətləblər mövcud rejimin tələblərinə uyğun gəlməyəcəkdi [3, s.20].

"İnsan" pyesinin "Vətən uğrunda" jurnalında dərcindən sonra müəllifə qarşı edilən kəskin ittihamlarda (məsələn, Q.Prokofyev) onun Zərdüştün fəlsəfəsinə uyması xüsusi vurğulanırdı. Şair ittihamları rədd edərək, "bir milli adam olaraq öz psixologiyamda çoxəsrlik milli ideologiya, fəlsəfə, psixologiya və mənəviyyatın nəcibliyini daşıyır və yaşayıram" cavabını verir və yeni ideologiyanı şəxsi və milli hisslərin mühitində anlamağı, sevməyi" məqbul hesab etdiyini bildirir.

Klassik irslə bağlı elmi-nəzəri fikir və mülahizələrə diqqət, mövcud ədəbi – mədəni təcrübə, sənət məsələlərinə çağdaş baxış "Azərbaycan" jurnalının müstəqillik illərindəki ədəbi siyasətində xüsusi çəkiyə malikdir.

Klassik irsin dəyər səviyyəsində öyrənilməsi, ədəbi irsə qayğı, klassiklərin həyat və yaradıcılığına yeni dövrün metodologiyası baxımından yanaşılması, klassik mətnlərin öyrənilməsi və yenidən dəyərləndirilməsi ilə bağlı ədəbiyyatşünaslıq yazılarının mütəmadi dərc olunması jurnalı yalnız bədii mətnlərin dərci ilə məşğul olan nəşr nümunəsi kimi deyil, elmi tədqiqat laboratoriyası səviyyəsində araşdırmaların mühüm mənbəyi kimi düşünüldüyünü deməyə əsas verir. Həm də bu sahədə görülən işlərin ən mühümü, ayrı-ayrı tədqiqat xarakterli mətnlərin dilində elmi üslubu publisistik üsluba yaxınlaşdırmaqla, akademizmin də bədii yaradıcılıq nümunəsi səviyyəsində dərk və qəbul olunmasına, bununla da ədəbi prosesin canlı mexanizmə çevrilməsinə nail olmaqdır.

Ədəbiyyat tarixində yaradıcılıqları mühüm mərhələ, səhifə olan yazıçıların yubileylərinin qeyd olunması ədəbi irsə münasibətin göstəricilərindən biridir. Bu da bir həqiqətdir ki, hər yaradıcılıq yolu rəmzləşə, hər yaradıcı tale obrazlaşa bilmir. Düşüncəni səmtləndirə biləcək enerjini görmək, duymaq, onun ötürücülüyünü təmin etmək yubileylərin qeyd olunmasının bir məqsədidir. Məsələnin başqa bir tərəfi də vardır; vicdanlı əməyin, sağlam təfəkkürün, böyük amallara xidmətin layiqli qiymətini vermək həssaslığının sosial-mənəvi çəkisi, əhəmiyyəti daha çox cəmiyyətə yönəlir. Söhbət insan tərbiyəsindən, şəxsiyyət yetişdirməkdən, estetik idealı formalaşdırmaqdan gedir və başlıca yol budur – faydalı, vicdanlı əməyin mənəvi nüfuzunu yüksəltmək. Bu yöndə hər qərar, sərəncam, yanaşma bütöv bir sistemi hərəkətə gətirir, duyğulandırır, düşündürür. Yubiley, xüsusən

də 100 illik yubiley – bir yaradıcı şəxsin xatirəsinin yad olunması deyil. Bu, bütöv bir dövrün, bir və bir neçə ədəbi nəslin keçdiyi yolun, mühitin və mədəniyyətin sərf – nəzər olunması, yenidən dəyərləndirilməsinə, stimul və istinad nöqtələrinin təyin olunmasına açılan bir imkandır. Bu, humanitar siyasətin tərkib hissəsi olmaqla yanaşı, eyni zamanda müxtəlif sistemlərin daxilində mədəniyyətlərin müqayisə olunması, qarşılaşdırılması deməkdir. Bu zaman bir məsələnin də nəzərə alınması mühümdür; müqayisə yalnız fərqi göstərmək cəhdi deyil. Qarşılaşdırılan hər nəsnədə ortaq dəyərləri, ümumi, yaxın olan xüsusiyyətləri axtarmaq daha faydalı olmazmı? Fərq – uzaqlaşdırır, soyuqluğu artırır, ziddiyyəti dərinləşdirir. Xüsusilə sosial-mədəni proseslər fonunda, cəmiyyətdə dəyərlərin yenilənməsinin qarşısıalınmazlığını, stereotiplərin deformasiya labüdlüyünü tez-tez və ucadan təkrarlamaq vərdiş halına keçəndə. Halbuki, gələcəyimiz dünyanı nə dərəcədə vəhdətdə dərk etməyimizə, qütblərin yaxınlaşmasına bağlıdır. "Azərbaycan" jurnalı həyatı və yaradıcılığı məhz belə müqayisəyə imkan verən yaradıcı insanların yubileylərinin qeyd olunmasını məqbul hesab edir. 2011 -ci ildə 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuş [4, s.27] Mirvarid Dilbazinin bu misralarını xatırlamaq yerinə düşür:

*Bir kitabam, sinəm sözlə doludur,*
*Getdiyim yol ululların yoludur.*

Tarix, əslində, elə budur – xatirələr. İnsan həyatı da buradadır - xatirələrdə. Mahiyyətimiz, kökümüz də eləcə, gücümüz, gözəlliyimiz, dəyərimiz də. Bu həm də etnosun tarix səviyyəsində dərk olunmasıdır. Özünü bu səviyyədə dərk edəndə böyük mədəniyyətin daşıyıcıları və yaradıcıları olmaq mümkündür.

"Azərbaycan" jurnalının səhifələrində yubileylərin qeyd olunması iki rubrikada aparılır. Bunlardan biri vəfat etmiş sənətkarların xatırlandığı, məsələn, "Mirzə İbrahimov-90", digəri isə, "Dünya, səndən kimlər keçdi..." rubrikalarıdır. Həyatda olan yazıçı və şairlər, ədəbiyyatşünaslar, məsələn, "Məmməd Orucun 70 yaşı" rubrikasında təqdim olunur. İlk baxışdan diqqət çəkməyə bilər, amma burada incə və həssas məqam dilin semantikası baxımından da diqqətəlayiqdir və bu yanaşma digər nəşrlərdə nəzərə alınmır.

"Azərbaycan" jurnalının səhifələrində diqqətçəkən məsələlərdən biri də klassik ədəbi irsin dəyər səviyyəsində öyrənilməsidir. Ədəbi irsə diqqət və qayğı, klassiklərin, klassik mətnlərin öyrənilməsi, yeni mənəvi dəyərlər sisteminə qaytarılması. Klassiklərin (məsələn, Nizami Gəncəvinin) təbliğ etdikləri ideyaların və etik dəyərlərin aktuallığını qoruyub saxlaması - ədəbiyyatşünaslıq və fəlsəfə klassik irsin əbədiyaşar sirrini bunda görür:

İntellektual-ideoloji rezonansa səbəb olan bir hadisə – Oksford Universitetində Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzinin açılması (qurucusu və rəhbəri akademik Nərgiz Paşayevadır) ilə bağlı ədəbi ictimaiyyətlə fikirlərini bölüşən Nizami Cəfərov məsələyə başqa aspektdən qiymət verir: "Nizami Gəncəvi ümumbəşəri hadisə olduğundan, onu dünyanın hər yerində öyrənmişlər, ancaq nizamişünaslıq adlanan mükəmməl elmi məhz azərbaycanlı araşdırıcılar yaratmışlar. Məhəmməd Əmin Rəsulzadə, Həmid Araslı, Qəzənfər Əliyev, Mübariz Əlizadə, Rüstəm Əliyev, Zümrüd Quluzadə, Əkbər Ağayev, Arif Hacıyev, Nüşabə Araslı, Azadə Rüstəmova kimi araşdırıcılar sübut etdilər ki, nizamişünaslıq azərbaycanlılar üçün yalnız elm deyil, həm də (və daha çox) milli-mənəvi özünüifadə (və özünütəsdiq) vasitəsidir" [5, s.5].

Nizami kimi sənətkarların ölümsüzlüyünün səbəbi onların öz əsərlərində dövrlərin mənəvi təcrübəsi əsasında konkret tarixi materialın kontekstində ümumbəşəri problemlər qoyub həll etmələridir, insanı onun mövcudluq problemlərinin dəyişməz mənəvi və sosial dəyərlər sınağında dərk etmək qüdrətindədir. Bu problemlər insan həyatı, insan fikri və duyğuları üçün həmişə aktual və canlıdır və bəşəriyyətin qarşısında həmişə bütün kəskinliyi və ciddiliyi, möhtəşəmliyi və kəskinliyi ilə durmuş və durmaqdadır...

Y.Qarayev "Orta Şərq – İslam intibahı – Nizami Gəncəvi" məqaləsində Nizami irsinə bu yöndən insan dəyərinə xidmət edən sənətinə görə qiymət verir və bu yaradıcılığın müasirliyini mənəvi dəyərlərin möhtəşəm miqyası ilə izah edir: "Xüsusən indi yeni təfəkkürün və əxlaqın, əqli-mənəvi intibahın, milli-bəşəri dəyər və beynəlmiləl sərvət axtarışının müasir mərhələsində "Xəmsə"dəki utopiya əsl bir gerçəklik, həqiqət və əməl cizgiləri kəsb edir".

Nizamini bizim müasirimiz edən onun yaradıcılığında mənəvi dəyərlərin möhtəşəm miqyasıdır: "Öz sosial-siyasi görüşlərinin miqyası və məzmunu, insana, onun cəmiyyətdə mövqeyinə və roluna, humanist mahiyyətinə verdiyi qiyməti əqli-əxlaqi-sosial təkamül idealı ilə Nizami bu gün də bizim müasirimiz olaraq qalır. XXI əsrin də ideoloji döyüşlərində, humanizm və irtica mübarizələrində ən yaxından iştirak etməyə hazır olduğunu elan edir [6, s.173-174].

Mənəvi dəyərlərin təcəssümü və təbliği milli ədəbiyyatın funksiyalarından biridir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının 1990-cı illər mərhələsinin əsas xüsusiyyətləri "Xalqın mənəvi, ruhsal xüsusiyyətləri bədii əsərlərin məna mündəricəsini təşkil edir. Ədəbi obrazların daxili dünyası ilə cəmiyyətin mənəvi dəyərləri arasında sıx əlaqə vardır [7, s.185].

Bəzən mənəvi dəyərlər və xəlqilik anlayışlarını eyniləşdirirlər. Vətən sevgisi, soy-kökə, ata yurduna, adət-ənənələrə bağlılıq, böyüyə hörmət və s. etik dəyərlər Azərbaycan ədəbiyyatı nümunələrinin ideyasını və məzmununu təşkil edir. Vaxtilə böyük maarifpərvər və ədəbiyyatşünas F.Köçərli rus klassiklərini də bu yöndən qiymətləndirirdi. "Qoqol və Puşkin və bunlardan sonra Nekrasov, Turgenev, Dostoyevski, Qonçarov, Tolstoy, Çexov, hal-hazırda M.Qorki və Andreyev, əllərində məşəl, rusların məişətinə daxil olub, onun hər səmtinə və küncünə işıq salıb, millətin yaralarını və cismani qüdrətlərini, qəm və şadlıqlarını görüb və gördüklərinin surətini və şəklini mahir nəqqaş kimi eyni ilə çəkib bütün aləmə göstərib deyirlər: "Baxın görün! Budur bizim millət! Bu dayaqdır onun düzlüyü və dolancağı. Budur onun halı, fikirləri, hissiyyatı və xəyaləti [8, s.58]. Azərbaycan ədəbiyyatşünaslığının banisi F.Köçərli rus yazıçılarının yaradıcılığını örnək göstərməklə, Azərbaycan yazıçılarını xalqımızın mənəvi dəyərlərini əks etdirən əsərlər yaratmağa çağırırdı.

**Nəticə.** Klassik irsin milli dəyər kimi təbliğində və araşdırılmasında "Azərbaycan" jurnalının yeri, əhəmiyyəti təkcə onun tarixinin kifayət qədər zəngin olması ilə şərtlənmir. XX əsr Azərbaycan ədəbiyyatının və ədəbi nəsillərinin, ədəbi düşüncəmizin az qala bir əsrə yaxın yolu "Azərbaycan" jurnalı ilə bağlıdır. Ədəbi irsə qayğı, klassiklərin, klassik mətnlərin öyrənilməsi, yeni mənəvi dəyərlər sisteminə qaytarılması jurnalın ədəbi siyasətinin əsas istiqamətlərindən biridir. Jurnalın AMEA-nın Əlyazmalar İnstitutu ilə birgə "Naməlum abidələrimizdən soraqlar", "Söz xəzinəmizdən" layihələri, Ədəbiyyat İnstitutunun müvafiq şöbələri ilə sıx əməkdaşlığı bu məqsədə xidmət edir. "İnci söz", "Köklər, qaynaqlar", "Ədəbi irsimizdən", "Adımız, tariximiz, taleyimiz" rubrikalarında, eləcə də daimi rubrikalardan olan "Tənqid və ədəbiyyatşünaslıq" da təqdim olunan materiallar ədəbi irsin dəyər səviyyəsini müəyyən edən yaradıcılıqların, mətnlərin dövrlərin mənəvi təcrübəsini konkret tarixi materialın kontekstində təqdim edilən ümumbəşəri problemlərin həllinə yönəltmək, insanı sabit mənəvi və sosial dəyərlər sınağında dərk etmək qüdrəti – ədəbi irsin məktəb kimi öyrənilməsini həmişə aktual edən məhz budur.

## ƏDƏBİYYAT


1. Ağayev Ə.M. Nizami və dünya ədəbiyyatı. Bakı, Azərnəşr, 1964.
2. Vəkilov M. "Ömür dedikləri bir karvan yolu". "Azərbaycan" jurnalı, 1976, №
3. Bağırova A.A. S.Vurğunun nəzəri-estetik görüşlərində klassik irs problemi". Bakı, 2010.
4. "Azərbaycan" jurnalı, 2011, № 10.
5. "Ədəbiyyat" qəzeti, 9 may, 2015.
6. Qarayev Y. Seçilmiş əsərləri, III cild.
7. Hüseynli A. Nəsr və zaman, Bakı, "Yazıçı", 1989.
8. "Zənbur" jurnalı, 1909, N 7.